


ŞƏHLA QARAYEVA
TƏQAÜD PROQRAMI

# İLLİK HESABAT

2022

SGSP




# BUGÜN ŞQTP

Şəhla Qarayeva Təqaüd Proqramı 2018-ci ildən bəri hər il gənc qızların təqaüd proqramından maliyyə yardımı və mentorluq proqramı şəklində faydalanması üçün iki və ya üç aylıq müddətə müraciət qəbul edir.
2018-ci ildən bəri təqaüdçülərimizin sayı hər il artmağa davam edir (2018/2019 - 4 nəfər təqaüdçü, 2019/2020 - 6 nəfər, 2020/2021 - 20 nəfər). Bu il əvvəlki illərlə müqayisədə ən çox təqaüd verə bildiyimiz il oldu - ***43 tələbəyə təqaüd*** verməyə nail olduq.

43 TƏQAÜD



# ƏRIZƏ QƏBULU 2022




2022-ci ildə Ərizə forması iki ay müddətinə açıq elan olundu. Bu müddət ərzində bizə ümumilikdə 194 ərizə daxil olub, halbuki 16 ərizəçi (kişi namizədlər, düzgün və ya tam doldurulmamış ərizə formaları) seçim prosesinin ilk mərhələsində diskvalifikasiya edildi (ŞQTP-yə müraciət etmək üçün uyğunluq tələblərindən biri Azərbaycanda yaşayan qadın olmaqdır).

## Ümumilikdə, biz 178 ərizəni qiymətləndirdik.




Ərizəçilərin təqaüd proqramına müraciət etmək məqsədi nümayiş etdirilən ehtiyacdan asılı olaraq dəyişir. Diaqramda göstərildiyi kimi, qızların əksəriyyəti təqaüd proqramına ya təhsillərini davam etdirmək, müxtəlif şəxsi ehtiyaclar ya da fərqli şəxsi inkişaf kurslarından (dil, ixtisasla bağlı və magistratura üçün hazırlıq kursları) yararlanmaq üçün müraciət edirlər.

# SEÇİM PROSESİ 2022

Ərizəçilərin seçim prosesi üç mərhələdə aparıldı: **1) *İlkin baxış*; 2) *Tərəfdaşların qiymətləndirməsi*; 3) *Müsahibə*.** Seçim mərhələsinin hər bir mərhələsi aşağıda daha ətraflı izah olunub.

**İlkin baxış**

Bu mərhələdə SGSP layihə qrupu ***178 ərizəni*** üç kateqoriyaya bölməklə nəzərdən keçirdi: *yüksək ehtiyac*, *orta ehtiyac*, *aşağı ehtiyac*. Ehtiyacın səviyyəsini müəyyənləşdirmək üçün ərizəçinin sosial və iqtisadi göstəriciləri istifadə olundu. Bütün ərizələrə ilkin baxışdan sonra ŞQTP layihə qrupu ikinci mərhələyə keçən **119 ərizəçini** müəyyənləşdirdi.

**Tərəfdaşların qiymətləndirməsi**

ŞQTP ianəçilərindən üç nəfər və tərəfdaş təşkilatların üzvləri təqaüdçülərin ərizələrindəki qısa cavab esselərinə baxış keçirib aşağıdakı iki meyar əsasında: **a) ən yüksək ehtiyac və b) gələcək haqqında məqsədlərin aydınlığı** qiymətləndirmə apardılar. Bu mərhələnin sonunda ŞQTP layihə komandası, müsahibə mərhələsinə keçən **79 *finalisti*** müəyyənləşdirdi.

**Müsahibə**

ŞQTP ehtiyaca əsaslanan təqaüd proqramı olduğundan, layihə qrupu təqaüd fondunun tələbələrin ehtiyaclarına nə qədər uyğun olduğunu araşdırmaq məqsədi ilə fərdi telefon, "Zoom" və ya "Skype" vasitəsilə müsahibələr apardı. Bu mərhələdə ŞQTP layihə qrupunun məqsədi hər bir finalist ilə daha yaxından tanış olmaq və ərizə formasında olmayan sualları verməkdən ibarət idi. Diqqətli müzakirələr əsasında dörd günlük müsahibə prosesinin sonunda ***35 təqaüdçü layihə komandası və 8 təqaüdçü*** tərəfdaş təşkilat - Qırmızı Ürəklər Fondu tərəfindən seçildi, ümumilikdə ***2022-ci il təqaüd alanlarının sayı 43-ə*** çatdı.

***Təqaüdçülərimizlə daha yaxından tanış olmaq istəyirsinizsə, veb saytımıza daxil olun (https://sgsp.info/teqaudculer/)***

# MENTORLUQ PROQRAMI

ŞQTP çərçivəsində mentorluq proqramı mükafatlandırılan qızların erkən karyera və şəxsi inkişafını dəstəkləmək məqsədi ilə yaradılmışdır. Mentorlarla təmasda olanların ümumi rəyinə görə, mentorların onlara fərdi yanaşması ŞQTP proqramının böyük üstünlüyüdür. Həmçinin təqaüdçülər qeyd edir ki, ***mentorlarla davamlı fikir mübadiləsi onların cari mövqelərinin doğru qiymətləndirilməsində və yaxın gələcək üçün prioritetlərin müəyyən edilməsinə müsbət təsir göstərib.***

Mentorluq proqramı, iştirakını mümkün qədər asanlaşdırmaq üçün mükafat alanların gündəlik vəzifələrinə və ailə məsuliyyətlərinə uyğunlaşmaq üçün çevik qrafik əsasında təşkil olunur. Bundan əlavə, ***mentorluq proqramı qızlar arasında əlaqələrin güclənməsinə kömək edir və icma daxilində ümumi maraqlar əsasında əlaqə yaratmaq imkanını yaradır.***

***Mentorlarımızla tanış olmaq istəyirsinizsə, veb saytımıza daxil olun***

***(https://sgsp.info/mentorlarimiz/)***



# ƏMƏKDAŞLIQLAR

Bu il biz işimizin təsirini artırmaq üçün Azərbaycan Mədəniyyət Cəmiyyəti Şimali Kaliforniya, Azərbaycan Naminə və Qırmızı Ürəklər Fondu ilə əməkdaşlıq etdik. Hər üç qeyri-kommersiya təşkilatı bizə təqaüdlər üçün daha çox vəsait toplamağımıza və təqaüdçülərimiz üçün daha yaxşı proqramlaşdırma həyata keçirməyimizə kömək edən təşkilati və fandreyzinq dəstəyi verdi. 2022-ci ili bu günə qədər ən uğurlu il etmək üçün ayırdıqları vaxt və səylərə görə tərəfdaşlarımıza minnətdarlığımızı bildirmək istərdik! Aşağıda tərəfdaşlarımız haqqında ətraflı oxuyun.

**Azerbaijan Cultural Society of Northern California**

**For Azerbaijan Fund**

**Red Hearts Foundation**

**Baku Community Space**

ŞQTP 2018-ci ildən fəaliyyət göstərməsinə baxmayaraq, bütün kraudfandinq kampaniyası və bütün seçim prosesini onlayn şəkildə həyata keçirir. 4 il sonra, ilk dəfə ***3 oktyabr 2021-ci il tarixində,*** bütün illərin təqaüdçüləri ilə ilk fiziki görüş təşkil edə bilmişdik.

Bu il yenidən təqaüdçülərimiz və əməkdaş təşkilatlarla **17 dekabr 2022-ci il tarixində** görüş keçirməyə nail olduq. Məqsəd qızların həm digər təqaüdçüləri, həm də bizləri tanımağı, təcrübə mübadiləsi aparması və eyni zamanda onları yeni proqram və fürsətlər barəsində məlumatlandırmaq idi. Görüşdə hər üç əməkdaş təşkilatın - ACSNC, For Azerbaijan və Red Hearts təmsilçiləri və bu görüşü təşkil etməkdə bizə yardımçı olan Baku Community Space Komandasının üzvləri də iştirak etdi.

İnanırıq ki, təqaüdçülər bir-birləri ilə tanış olduqca, təcrübələrindən yararlandıqca, proqramın təklif etdiyi digər tərəflərini (mentorluq, təlimç ingilis-dili kursları və s.) də nəzərə alsaq, ***Azərbaycanda təhsili, xüsusilə də qızların təhsilini dəstəkləyən güclü bir cəmiyyət qura bilərik.***



# KRAUDFANDİNQ KAMPANİYASI

ŞQTP Kraudfandİnq Kampanİyası 2022 Azərbaycandan olan gənc qızlarım təhsilini maliyyələşdirmək üçün ümumilikdə $ 5136 (ABŞ Dolları) toplamağa imkan verdi. **ACSNC (Azerbaijan Cultural Society Northern California - Azərbaycan Mədəniyyət Cəmiyyəti Şimali Kaliforniya)** ilə əməkdaşlıq sayəsində biz Kraudfanding Kampaniyası zamanı ümumilikdə ***76 ianə*** aldıq və bu, bizə ***8 təqaüd*** verməyə imkan verdi. Uğurlu əməkdaşlıqlar il boyu davam etdi: **Azərbaycan Naminə Fondu (For Azerbaijan Fund), Qırmızı Ürəklər (Red Hearts Fund)** ilə olan əməkdaşlığımız və **Anonim ianəçinin** dəstəyi sayəsində biz ***35 təqaüd*** daha verə edə bildik. Aşağıdakı qrafik ianələrin keçirilən kampaniyalar və tərəfdaşlıqlar üzrə bölgüsünü göstərir.



# MALİYYƏ HESABATI

## Budget 2022 (USA Dollars)

| | | |
|---|---|---|
| **Revenue** | | |
| Crowdfunding Campaign Donations - (Facebook) | $ | 2,219.00 |
| Crowdfunding Campaign Donations (Website) | $ | 2,927.77 |
| Donation in cash | $ | 7,512.72 |
| **Total Revenue** | **$** | **12,659.49** |
| **Expenses** | | |
| Administrative Expenses | $ | 839.50 |
| Program Expenses | $ | 10,795.49 |
| **Total Expenses** | **$** | **11,634.99** |
| **Net Surplus (Deficit)* 2022** | **$** | **1,024.50** |

| | |
|---|---|
| **Administrative expenses/Total Revenue** | **7%** |
| **Program Expenses/Total Revenue** | **85%** |
| **Net Surplus 2022/Total Revenue** | **8%** |

***Gəlir və xərclər 30 dekabr 2022-ci il tarixinə qədər olan rəqəmləri əks etdirir.***

SGSP

**Bütün bunlar Sizin dəstəyiniz sayəsində!**

**Təşəkkürlər!**